**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**ƏMR № 14**

Bakı şəhəri 16.02.2012-ci il

**"İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının təsdiq edilməsi barədə"**

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında qeyd olunan icraçı qurumlar müəyyən olunmuş müddət ərzində tədbirlərin tam şəkildə icrasını təmin etsinlər.

3. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Əsli ilə düzdür

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
16.02.2012-ci il tarixli 14 nömrəli əmri ilə
təsdiq edilmişdir

**İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

# TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | **2. Əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi** | | |
| | **2.4. İşsizlərin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, onların yeni peşələrə yiyələnməsinə yönəlmiş kursların təşkili** | | |
| 1. | İşsiz tibb işçilərinin işə qəbul edilməzdən əvvəl qanunvericiliklə müəyyən edilmiş qaydada hazırlıq keçmələrinin təmin edilməsi | KETŞ, Ə.Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) | Mütəmadi |
| | **2.5. İşçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsi, istehsalatda və tikintidə əməyin təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması** | | |
| 2. | İstehsalatda və tikintidə əməyin təhlükəsizliyinin təmin edilməsi məqsədilə sanitar-maarifləndirmə işinin aparılması üçün metodik vəsaitlərin hazırlanması | SOŞİPŞ, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi (RGEM), İSİM | Mütəmadi |
| | **2.7. Əhali, xüsusilə də uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliği, narkomaniyaya, alkoqolizmə aludə olanların, İİV/QİÇS-ə yoluxmuş şəxslərin reabilitasiyası üzrə tədbirlərin həyata keçirilməsi** | | |
| 3. | Əhali, xüsusilə də uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliğinə dair çap materiallarının (bukletlər, plakatlar, kitabçalar və s.) hazırlanması | İSİM, RGvəEM | Mütəmadi |
| 4. | Gənclər arasında zərərli vərdişlərin (narkomaniya, alkoqolizm) profilaktikası ilə bağlı respublikanın ali və orta təhsil müəssisələrində tələbə/şagird heyəti ilə müvafiq həkim-mütəxəssislərin görüşü və mühazirələrin təşkili | İSİM, Respublika narkoloji Mərkəzi (RNM), Respublika QİÇS-lə Mübarizə Mərkəzi (RQİÇSMM) | Mütəmadi |
| 5. | Narkomaniyaya, alkoqolizmə aludə olanların, İİV/QİÇS-ə yoluxmuş şəxslərin reabilitasiyası | İSİM, RQİÇSMM, | Mütəmadi |

| Sıra №-si | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | üzrə tədbirlərin həyata keçirilməsi | RNM, RGEM | |
| **2.8. Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların təlim və peşə hazırlığının, onlara göstərilən xidmətlərin (sosial xidmət, inklüziv təhsil və s.) keyfiyyətinin yaxşılaşdırılması məqsədilə xüsusi olaraq tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanması** | | | |
| 6. | Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə tibbi kadrların təkmilləşdirilməsi üçün təlim materiallarının və metodik vəsaitlərin hazırlanması və nəşr edilməsi | İSİM, ADHTİ | Mütəmadi |
| 7. | Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin işçilərinin müvafiq təkmilləşdirmə kurslarına cəlb edilməsi | RETŞ,, ADHTİ, yerli səhiyyə orqanları | Mütəmadi |
| **2.9. Ahılların hüquqlarının təmin edilməsi sahəsində tədqiqatların aparılması və monitorinq sisteminin təkmilləşdirilməsi** | | | |
| 8. | Ahıl vətəndaşların sağlamlığının qorunması məqsədilə yaşadıqları ərazi üzrə tibb müəssisələrində dispanser qeydiyyatına götürülməsi | Yerli tibb idarə və müəssisələri | Mütəmadi |
| 9. | Dispanser qeydiyyata götürülən ahıllara müəyyən edilmiş xəstəliklərə uyğun olaraq fərdi profilaktik tədbirlərin aparılması | Yerli tibb idarə və müəssisələri | Mütəmadi |
| 10. | Ahıllar üçün ixtisaslaşdırılmış psixoloji tibbi xidmətlərin təşkili | PSM | Mütəmadi |
| **2.10. Saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə şəraitin və rejimin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi** | | | |
| 11. | Məcburi müalicədə olan şəxslər üçün şəraitin və rejimin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi | TYTŞ, Məhkəmə psixiatriya ekspertiza Mərkəzi, Respublika Psixiatriya Xəstəxanası | 2012-2015 |
| **2.13. Qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili** | | | |
| 12. | Qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması məqsədilə qadın tibb işçilərinin səhiyyə müəssisələrində müəyyən vəzifələrə işə qəbul edilməzdən əvvəl müvafiq kurslara göndərilməsi | KETŞ, yerli tibb idarə və müəssisələri | Mütəmadi |
| **2.15. Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması** | | | |
| 13. | Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür | PSM, Respublika Klinik | Mütəmadi |

| Sıra №-si | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | zorakılığın qurbanları üçün reabilitasiyanın, tibbi-psixoloji yardımın təmin olunması | Xəstəxanası, 2 saylı Uşaq Klinik Xəstəxanası, 25 saylı Şəhər Poliklinikası, 7 saylı qadın məsləhətxanası | |
| **2.21. Əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi** | | | |
| 14. | Ətraf mühitin çirklənməsinin əhalinin sağlamlığına təsirinin qiymətləndirilməsi üzrə işlərin davam etdirilməsi və informasiya bankının yaradılmasının başa çatdırılması təmin edilməsi | RGEM | 2012 |
| 15. | Ətraf mühit amillərinin əhalinin sağlamlığına təsirinin qiymətləndirilməsi məqsədilə dövlət sanitariya nəzarətinin gücləndirilməsi təmin edilməsi | RGEM | Mütəmadi |
| 16. | Əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasının insan sağlamlığı üçün zəruri olması barədə maarifləndirmə işlərinin aparılması | İSİM, RGEM | Mütəmadi |
| **3. Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi** | | | |
| **3.4. Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təmin edilməsi** | | | |
| **3.4.2. Elektron xidmətlərin həyata keçirilməsinin təmin edilməsi** | | | |
| 17. | Səhiyyə sahəsində elektron xidmətlərin davamlı tətbiqi, monitorinqi, yenilənməsi və təkmilləşdirilməsi | SİM | 2012-2013 |
| 18. | Vətəndaşların "Elektron sağlamlıq kartı" sisteminin təkmilləşdirilməsi | SIM, RGEM | 2012-2013 |
| 19. | Nümunəvi tibbi-informasiya sisteminin dövlət səhiyyə müəssisələrində mərhələlərlə tətbiqinə nəzarət sisteminin təkmilləşdirilməsi | SIM | 2012-2013 |
| **4. İnsan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri** | | | |
| **4.1. "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokolunun tələblərinin hüquq mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işinin təşkil olunması** | | | |
| 20. | "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokolunun aidiyyəti səhiyyə işçiləri tərəfindən öyrənilməsinin təşkili | HDNS, İSİM | 2012 |

| Sıra №-si | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | **?. "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokoluna uyğun olaraq milli preventiv mexanizmin funksiyalarının səmərəli yerinə yetirilməsini təmin etmək məqsədilə maarifləndirmə və digər zəruri tədbirlərin həyata keçirilməsi** | | |
| 21. | "İşgə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Komsiya"nın və onun Fakültativ Protokoluna uyğun olaraq milli preventiv mexanizmin funkalarının səmərəli yerinə yetirilməsini təmin etmək məqsədilə maarifləndirmə tədbirinin həyata keçirilməsi, çap materiallarının (bukletlər, plakatlar, kitabçalar və s.) hazırnması | HDNS, İSİM | 2012 |
| | **4.8. YUNESI-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları (qadar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar) üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması** | | |
| 22. | YUNSKO-nun "Təhsil hamı üçün" prinsipinin şəhər və rayonlarda əhalinin müxtəlif qrupları (narhaniya və HİV/AİDS-ə yoluxmuş insanlar) üçün təlimçilərin hazırlanması | QİÇS MM, RNM, İSİM | Mütəmadi |
| | **!8. Reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə əhalinin maarifləndirilməsi üçün könüllülərin hazırlanması** | | |
| 23. | Repuktiv sağlamlıq və ailə planlaşdırılması haqqında əhalinin maarifləndirilməsi üçün təlim matellarının hazırlanması | ET MGİ, İSİM | Mütəmadi |
| 24. | Repuktiv sağlamlıq və ailə planlaşdırılması haqqında əhalinin maarifləndirilməsi üçün seçilş könüllülər üçün təlimlərin keçirilməsi | ET MGİ, İSİM | Mütəmadi |
| 25. | Şəhə rayonlarda reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə könüllülər tərəfindən təlirin keçirilməsinin təşkil olunması | İSİM, ET MGİ | Mütəmadi |
| | **5. İnsan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq** | | |
| | **5.3. BMT-nin "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi** | | |
| 26. | BM'in "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün müvafiq tədbrin keçirilməsi | BƏŞ, İSİM | 2012-2015 |